**AZAD MİRZƏCANZADƏ**

# TƏHSİLİN HUMANİSTLƏŞDİRİLMƏSİ HAQQINDA ETÜDLƏR

Tərcüməçi:
İlqar Əlfioğlu

QANUN NƏŞRİYYATI

Azad Mirzəcanzadənin “Təhsilin humanistləşdirilməsi haqqında etüdlər” kitabı təhsil sisteminin mahiyyətinə, onun humanist dəyərlər əsasında qurulmasının vacibliyinə həsr olunmuş fundamental əsərdir. Müəllif bu kitabda təhsilin missiyasının yalnız bilik ötürmək deyil, həm də insan şəxsiyyətinin inkişafına xidmət etməli olduğunu vurğulayır. O, tələbə-müəllim münasibətləri, tədris metodlarının təkmilləşdirilməsi, yaradıcı düşüncənin stimullaşdırılması və elmin humanitar aspektləri haqqında dərin təhlillər aparır.

Kitab pedaqoqlar, tələbələr və təhsil sahəsində çalışan hər kəs üçün qiymətli vəsaitdir.

**Azad Mirzəcanzadə. Təhsilin humanistləşdirilməsi haqqında etüdlər.**

Ölçü: 145x210 mm
Cild: yumşaq
Səhifə sayı: 504

| | |
|---|---|
| Naşir: | Şahbaz Xuduoğlu |
| Tərcüməçi: | İlqar Əlifoğlu |
| Redaktor: | Nərgiz Cabbarlı |
| Korrektor: | Bəsti Məmmədova |
| Mətn dizaynı: | Ramin Əli |
| Qapaq dizaynı: | Rafael Qasım |

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pr., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-595-12-3

© Qanun Nəşriyyatı, 2025

## MÜNDƏRİCAT

Giriş ........................................................................ 7
§1. İnsana çox şey lazımdır? ........................................... 18
§2. Hər şey hamı üçün eyni dərəcədə uyğun sayılmaz ..... 51
§3. İnsan haqqında fikir formalaşdırmağın bəzi yolları .... 74
§4. Bütövlük üç üqnumun vəhdətindədir – istedad,
tərbiyə və xarakter ........................................................ 87
§5. Təsnifat haqqında .......................................................129
§6. Böyük kiçikdədir .........................................................136
§7. Prosesin ideallaşdırılması modeli...............................141
§8. İnformasiyanın azlığı şəraitində qərarların qəbuluna
dair ştrixlər .......................................................................164
§9. İradə haqqında.............................................................216
§10. Definitsiya ..................................................................221
§11. Pro et contra................................................................241
§12. Elm incəsənətin formasıdır.........................................255
§13. Linqvistik minimum...................................................270
§14. Elm gələcəyi qabaqcadan görüb proqnoz verə
bilərmi?................................................................................275
§15. Məktəb üçün deyil, həyat üçün öyrənirik..................291
§16. Çox şey barədə bir az .................................................312
§17. Müəllim, şagird və ixtisas seçimi haqqında ..............324
§18. Elmin kəmiyyət göstəriciləri üzrə təhlili..................361

§19. Psixodiaqnostikanın imkanları ....................................370
§20. Gələcəyin insanı və bir qədər genetika barədə..........389
§21. Qanunauyğun təsadüflər.............................................409
§22. Fikirlərin və ideyaların ötürülməsi və saxlanması üsulları ........................................................................................414
§23. İnsanların zövqünü kəmiyyətcə ölçmək mümkündürmü? ...................................................................419
§24. Bir az da tipologiya haqqında.....................................440
§25. Yeni vasitələr və formalar haqqında..........................449
§26. Kitabı sevin, lazımsız şeyləri oxumayın ...................459
Son söz ..................................................................................472
Adların qısa şərhi ................................................................481
Ədəbiyyat .............................................................................492

Gənc olanda məni öyrədə biləcək qoca axtarırdım. İndi qocalmışam deyə məni öyrədə biləcək gənc axtarıram.

*B.Brext*

# GİRİŞ

Eyni obyektiv prosesin, yaxud hadisənin müxtəlif metodlarla analizi real sistemlərin və onlara uyğun gələn real şəraitlərin bir-birindən çox fərqlənən konsepsiyalarının yaranmasına səbəb ola bilər.

Bunun illüstrasiyası kimi belə bir mülahizəni nümunə gətirmək mümkündür: memar elektrik, su və istilik sistemi olan hansısa evi böyük bir sistem kimi nəzərdən keçirə bilər. İstilik sistemləri mühəndisi isə həmin sistemi qapalı, evin özünü də ətraf mühit kimi nəzərdən keçirmək haqqına malikdir. Sosiopsixoloq üçün ev ailəni əhatə edən bir mühit, ailənin özü isə tədqiqatı ilə məşğul olduğu sistemin özüdür. İstilik və elektrik sistemləri arasındakı qarşılıqlı əlaqənin ailə üçün əhəmiyyəti olmaya bilər, amma memar üçün bu daha əhəmiyyətlidir. Qısası, tədqiq edilən sistemi, onunla ətraf mühit arasındakı sərhədləri müəyyənləşdirərkən çox diqqətli olmaq lazımdır.

Bənnalar haqqında bir pritça var. Birindən soruşurlar ki, nə edirsən? Deyir, araba ilə daş daşıyıram. Digərindən soruşduqda cavabı belə olur: “Şartr kilsəsini (XII–XIII əsrlərə aid zəngin heykəllərlə bəzənmiş qotik məbəd) tikirəm!” Yəni ikinci bənna öz əməyini hədəfinə bağlamış oldu[1].

Əmək kollektiv mahiyyət daşımalı və eyni zamanda insanların cinsindən, yaşından asılı olaraq bölünməlidir. “Tək skripkaçı özü-özünü idarə edir, orkestrin isə dirijora ehtiyacı var”, – kollektiv əməyin idarəçiliyə müəyyən dərəcədə ehtiyacı olduğu haqqında mülahizələrini Karl Marks belə yekunlaşdırmışdır.

---

[1] Anri-Lui Leken – XVIII əsrdə yaşamış fransız aktyoru deyirdi: *“Voir son arten grand”* – “Öz sənətini bütöv görmək” *(frans.)*

Bir dəfə fransız musiqiçisi Kape görkəmli dirijorlardan birinə sual verir ki, belə gözəl və ahəngdar ifaya qadir orkestrantları necə birləşdirə bilib? Dirijor: “Mən artistləri tapdım və onlardan insan yaratdım”, – deyərək sonra da əlavə edir: “Amma əksinə olsaydı, daha məmnun qalardım”.

V.Spivakov deyir: “...Mən adamları və musiqiçiləri tez tapdım. Qeyd edim ki, bizim mənəvi gücümüz aramızdakı hər hansı bir ixtilafa, fikir ayrılığına deyil, yaradıcı axtarışlara sərf olunur”. (“Sovetski soyuz” jurnalı, 1987, №10).

Yeni Qvineya papuaslarının əkinçilikdə kollektiv əməyini N.Mikluxo-Maklay belə təsvir edib: “Bir neçə kişi sıra ilə durub əllərindəki bir ucu itilənmiş ağacı torpağa sancır, sonra da iti hərəkətlə torpağın bütöv bir layını qaldırır. Onların dalınca dizi üstə sürünən qadınlar gəlir. Qadınların arxasınca isə müxtəlif yaşlı uşaqlar əlləri ilə iri kəsəkləri ova-ova keçirlər. Torpaq yumşalandan sonra qadınlar nazik çubuqla yeri deşir, içinə toxum, yaxud bitki kökləri basdırırlar”.

İstənilən əsərin ərsəyə gəlməsi prosesi vahid və bölünməzdir. Lakin təəssüf ki, belə hallara da rast gəlmək mümkündür:

Canlı bir varlığı yaxşı öyrənmək,
Çox aydın bir təsəvvür əxz etmək üçün
Əvvəlcə ruhunu ayırır alim,
Sonra da parçalara bölür onu.
Parçalar görünür ayrılıqda da, amma
Əfsus ki, onların ruh bağlantısı
Artıq yox olaraq görünmür tamam.

*(İ.V.Höte)*

1930-cu illərdə L.Bertalanfi sistemli analiz ideyasını formalaşdırdı. İdeyanın mənası obyekti nəzərdən keçirərkən onun ayrı-ayrı hissələrinin xassələrinə əsaslanmaqdan ibarət idi.

Araşdırma obyektini bir sistem kimi nəzərdən keçirmək mümkün olsun deyə aşağıdakı tələblərə cavab verməlidir:

1. Obyekt (bütöv) alt-sistemlərdən (hissələrdən) ibarət olmalıdır.

2. Alt-sistemlərin bir sistemdə birləşməsi vəzifənin (tədqiqatın hədəfinin) düzgün formalaşdırılmasına xidmət etməlidir.

3. Alt-sistemlərin sistem içində qarşılıqlı əlaqəsini müəyyən edən xüsusiyyətləri olmalıdır.

4. Sistem daha böyük bir sistemin parçası (alt-sistemi) olmalıdır.

R.L.Berqin fikrincə, sistemlər nəzəriyyəsi təbiətin harmoniyası ideyasını təbii seçmə ideyası ilə uzlaşdırmaqla lamarkizmlə darvinizmin sintezini yaradır. Burada təbii seçmə təkamül qanunauyğunluqlarından biri kimi orqanizmə nisbətdə ali sayılan qaydaların tənzimlənməsi prosesitək nəzərdən keçirilir və onu məhdudlaşdıran faktorların, xüsusilə də sistemin ayrı-ayrı elementləri arasındakı qarşılıqlı bağlantının əhəmiyyəti vurğulanır. Fərdi inkişaf zamanı qazanılmış əlamətlərin irsən ötürülməsi mümkün olsaydı, orqanizm fərdi xüsusiyyətlərinin reallaşdırma azadlığını məhdudlaşdırar və təkamülün tormozuna çevrilərdi.

Maraqlıdır ki, O.Mandelştam belə yazırdı: "Lafonten Lamarkın təlimini hazırladı. Onun əllaməlik, nəsihətçilik edən heyvanları təkamül üçün misilsiz canlı material oldu".

"Sistemli analiz – elektron hesablama texnikasından istifadəyə əsaslanan tədqiqat metodlarının və informasiyanın müasir ümumiləşdirmə üsullarının birliyidir" (N.N.Moiseyev).

Fon Neyman bir prinsip irəli sürdü. Bu prinsipə əsasən sadə sistemlərin təsvirini funksiyalarına görə, mürəkkəb sistemlərinkini isə quruluşlarına (yəni real strukturlarına) əsasən vermək lazımdır.

İstənilən böyük sistem müvəqqəti ləngimələrlə, qeyri-müəyyənliklə, kənar səsləşmələr və sairə ilə səciyyələnir. Buna baxmayaraq, iyerarxik təşəkkülə malik böyük sistemin bir əsas keyfiyyəti olur və bu keyfiyyət ondan ibarətdir ki, lokal qərarların qəbulu zamanı yol verilən səhvlər sistemin normal fəaliyyətinə heç bir təsir göstərmir.

İyerarxik prinsipin illüstrasiyası üçün minlərlə detaldan ibarət saat yığmaqla məşğul olan iki saatsazın klassik nümunəsini misal gətirmək olar. Birinci saatsaz saatı ardıcıl yığır və əgər hər hansı bir səbəbdən işində fasilə yaranarsa, hər şeyi yenidən başlamalı olur. İkinci usta bütün konstruksiyanı on hissəyə, hər hissəni isə daha on yerə bölür və yalnız bundan sonra işinə davam edir. Beləliklə, on kiçik hissədən bir böyük parça, on böyük parçadan isə bütöv saat yaranır, işdə fasilə yaranması ehtimalı, tutaq ki, 0,01-ə bərabərdirsə, birinci saatsaz bir saatın yığılmasına ikinci saatsazdan 20000 dəfə artıq zaman sərf etmiş olacaq.

Sistemli analizə onun banisi, “Ümumi təşkilati tektologiya elmi”nin müəllifi A.A.Boqdanovdan nümunə gətirək. Aktivliklərin qeyri-bərabərliyi müəyyən aktivlikləri toplayan eqressiya[1] meydana çıxardır. Aktivliklərin (“güc”, “hüquq” və sairə) qeyri-bərabər vəziyyətində insan fəaliyyətinin bütün aspektləri baxımından mərkəzə, öz “eqo”suna istiqamətlənən sistem yaranır. Tam və qeyd-şərtsiz subordinasiya əmələ gəlir. Sistem bir piramidadır ki, onun zirvəsində rəhbərlik edən mərkəz, təməlində isə “aktivlikdən” məhrum olan icraçılar dayanır. Yuxarıdan ötürülmüş əmri bir sıra obyektiv səbəblər ucbatından heç də həmişə yerinə yetirmək mümkün olmur. Bu zaman aşağılar mərkəzlə münaqişəyə girməmək üçün informasiyanı eybəcər halda (sığallı, şişirdilmiş və sairə) geri ötürür. Beləliklə, vasitələrin seçilməsində abırsızlıq, istifadə olunan metodlar baxımından təəccüblü bir saxtakarlıq yaranır. Bunlarla yanaşı, həm də avam, sadəlövh bir saxtakarlıq da görürsən: onlar yalançılığa, riyakarlığa görə başqalarını danlayır, özləri isə eyni vasitələrdən məmnuniyyətlə geninə-boluna istifadə edirlər. Tapşırığın yerinə yetirilməməsinə görə daşıyacağı məsuliyyət qarşısında qorxu eyni hissə, yəni qorxuya əsaslanan alt-sistemlərin qurulmasını zəruri edir və bu, eqressiyanın (sıradan ayrılmanın) bir əlavəsinə çevrilir.

Eqressiyanın ikinci xüsusiyyəti şəxsiyyəti parlaq fərdi keyfiyyətlərdən məhrum etməsidir. Eqressiv sistem daim öz ərazisini genişləndirməyə çalışır. Eqressiya yalnız kənara deyil, həm də sistemdaxili işlərə müdaxilə edib çoxmərkəzliliyi dağıdır. “İdarəolunmaz” kəndlilər kollektivləşmə vasitəsilə özlərinə bənzəyən başqa bir şeyə çevrilirlər. İyerarxiyada birinci rütbə, qədim hərbçilərin deyiminə görə, yefreytor (ən kiçik hərbi rütbə) olur. Onun işdən yayınaraq vəzifəsini başqalarının boynuna yıxmaq imkanı var. İkinci pillədən başlayaraq, üstünlüklərin sayı arta-arta gedir. Beləliklə, orta təbəqə – “aparat” əmələ gəlir.

Böyük sistemlərin mühüm keyfiyyətləri sırasına onların emercentliyini[2] də aid etmək mümkündür. Daha dəqiqi, onlarda məlum (müşahidə olunan) sistem elementlərindən və onların birləşmə üsullarından doğmayan inteqrativ keyfiyyətlər görünür. Deməli, böyük sistemin emercentliyinə görə, onun yalnız elementlərini və onlar arasındakı əlaqələri öyrənməklə kifayətlənmək olmaz. Sistemin bütöv şəkildə analizi aparılmalıdır.

---

[1] Eqressiya (lat.) – “sıradan ayrılma” – mərkəzçi tipli təşkilati forma

[2] Emergence (ing.) – yeni bir şeyin peyda olması, yaranması